**Bir rus mahnısı var, müharibə mövzulu filmlərin də fon musiqisi kimi xatırlayıram onu, "Hardan başlanır vətən". Xatirnizdə olar sizin də, məktəb illərində ədəbiyyat müəllimlərimiz bu mövzuda inşa da yazdırıblar. Cavablar da müxtəlif olub, beşikdən, doğulduğu evdən, yaşadığı kənddən, şəhərdən başladığını qürurla yazmışıq. Bu gün mənə elə gəlir ki, Vətən ana bətnindən başlayır, körpə ilk sevgini elə ana bətnindəcə öz anaslndan alır, sevməyi də ondan öyrənir. Dünyaya da bu sevgi ilə göz açır, baxır, məhəbbət dolu baxışları görür, böyüyür, ətrafı da, gördükləri də dəyişir, bircə hələ rüşeym ikən ruhuna üfürülən sevgidən başqa... Bu sevgi onunla birgə inkişaf edir, artır, bütün varlığını, cismini, qəlbini bürüyür. Ana sevgisi Vətən sevgisi ilə qoşalaşaraq daha mükəmməl bir eşqə çevrilir. Azərbaycan da haqlı davasını elə həmin o sevgidən güc alan oğullarla qazandı, tarixinə şanlı bir qələbə yazdı.**

Ətcələr kəndində Tağıyevlər ailəsində 1996-cı il noyabr ayının 1-də bir oğlan uşağı dünyaya gəldi, adını Fuad qoydular, amma Tağı deyə əzizlədilər. Uşaq böyüyüb orta məktəbə gedəndə ata-anası fərəhdən yerə-göyə sığmadı, 2014-cü ildə Ətcələr kənd tam orta məktəbi bitirib hərbi xidmətə yollananda quşlardan uçmağa qanad istədilər. Bəli, onların hələ də uşaq hesab etdiyi gizir olduqca çətin və ağır döyüşlərdə iştirak etmiş və qeyri-adi bacarıq nümayiş etdirmişdir. Fuad erməni dilini də öyrənmişdi və lazım olanda düşmənin içərisinə daxil olub lazımı məlumatları əldə edə bilirdi. O, Füzuli, Cəbrayıl, Zəngilan, Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin, Hadrut qəsəbəsi və tarixi Şuşa şəhərinin azad olunması uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Füzulidə düşmənin ilk istehkamlarının yarılmasında xüsusi şücaət və igidlik də məhz bu XTQ hissələrinin adı ilə bağlıdır.

Şuşa ətrafında gedən döyüşlərdə xüsusi təyinatlı qoşun dəstələrinin hücuma keçdiyi zaman şəxsi heyətin



TAĞIYEV FUAD MƏRDAN O.
ƏTCƏLƏR KƏNDİ

# Xüsusi təyinatlı Fuad Tağıyev

Fuad artıq böyümüşdü, həm də əvvəlcədən hərbçi olmağı qarşısına məqsəd qoyan Fuad bunun üçün vacib olan idmanla da ciddi məşğul olurdu...

Tağıyev Fuad Mərdan oğlu Sumqayıt şəhərindəki "N" saylı hərbi hissədə altı ay xidmət etdikdən sonra özünün fiziki imkanlarına və şəxsi istəyinə uyğun seçilərək Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlı Qoşunlarına aid olan "052" hərbi hissəyə dəyişdirilir. Bu hərbi hissə də sonra-müharibə vaxtı döyüş meydanlarında "052" sözünü eşidən düşmənlərin qorxudan bağrını yaracaqdı...

Beləliklə, Fuad taleyini həmişəlik hərb sənəti ilə bağlayır və ta şəhid olduğu günə qədər XTQ-da xidmətini davam etdirir. 2016-cı il Aprel döyüşlərində ön sıralarda döyüş tapşırıqlarını yerinə yetirərək koman-danlığın böyük etimadını qazanır. Sonrakı 2018-ci ildə Kiçik gizir, 2019-cu ildə "28 May Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101 illik yubileyi "münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda yüksək nailiyyətlər əldə etdiyinə və 2020-ci ildə də isə qış tədris dövründə nizam-intizamda, döyüş və ictimai-siyasi hazırlıqlarda göstərdiyi nailiyyətlərə görə Fəxri Fərmanla təltif olunmuşdur.

Qəlbində vətənə olan sevgisi tükənməyən, hər gün əsir torpaqlarımızın alınacağı günü gözləyərək uzun illərdir rahatlıq tapmayan peşəkar döyüşçü Kiçik gizir və onun xidmət etdiyi hərbi hissə Ali Baş Komandanın verdiyi İkinci Qarabağ müharibəsinin başlanması əmri ilə səfərbər oldular. Anadan sanki elə hərbçi olmaq üçün doğulan Fuad Tağıyev də bu döyüşlərin önündə getdi, 27 sentyabr günündən döyüşlərə qatılan kəşfiyyatçı-istehkamçı kiçik qorunması Fuad Tağıyevə həvalə olunmuşdu.

...Şəhidini al çiyninə sən yeri,
Yamaca yat, buludlarla tən yeri.
Addımların qoy titrətsin Göy-Yeri-
Yeri Ordum, yürü Qurdum, Şuşaya!...

Şuşaya doğru sıldırım qayalarla, keçilməz dağ yolları ilə irəliləyən xüsusi təyinatlı qoşun hərbi qulluqçularının qəhrəmanlığı artıq dillər əzbəri olaraq əfasanələrə çevrilməkdədir. Fuad da bu əfsanənin yaradıcılarından biri idi. O,oktyabr ayının 27-də on iki nəfərlik qrupla birgə Qırmızı bazar ərazisində komandanlığın xüsusi tapşırığnı yerinə yetirərkən ağır yaralansa da döyüşə davam etmişdir. Lakin düşmənlərin atdığı mərmi onun həyatına son qoymuş və qəhrəman döyüşçü müqəddəs şəhidlik məqamına qalxmışdır.

Döyüş yoldaşları ilə birgə düşmənin çoxlu sayda canlı qüvvəsini, xeyli hərbi texnika və avtomobilləri ni məhv edən Fuad Tağıyev Həşimxanlı kəndində torpağa tapşırılmışdır. Azərbaycanın igid oğlu Qarabağın işğaldan azad olunmasında göstərdiyi xüsusi igidlik və qəhrəmanlığa görə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Mən Fuadın tərbiyə aldığı ailədə böyük sevgi, hörmət və ehtiram hiss etdim. Həmin gün Fuad Tağıyevin işığına çox adam yığılmışdı, hər kəs də igid döyüşçüdən həvəslə söz açır və onunla fəxr etdiklərini bildirirdilər. Bütün ümid və arzularını yeganə oğluna bağlayan valideynlər də qürurla: - "Vətən hər şeydən və hər kəsdən irəlidir, onu qorumaq isə bizim vətəndaş borcumuzdur"-dedilər... Vətən sağ olsun!..

***Şahnaz ŞAHİN***

Kredo 2021.- 28 aprel.- S.14.